Valehoğlu Hacılar, F. (2019). 1918 yılının ilk yarısında Ahılkelek kazasında Türk-Müslüman nüfusa karşı etnik temizlik olguları ve sonuçları: Göyye ve Hosbiye katliamları. *Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, 8*(2), 1263-1275.

*Uluslararası **T**ürkçe **E**debiyat **K**ültür **E**ğitim Dergisi Sayı: 8/2 2019 s. 1263-1275, TÜRKİYE*

***Derleme Makale***

# 1918 YILININ İLK YARISINDA AHILKELEK KAZASINDA TÜRK-MÜSLÜMAN NÜFUSA KARŞI ETNİK TEMİZLİK OLGULARI VE SONUÇLARI: GÖYYE VE HOSBİYE KATLİAMLARI

**Fahri VALEHOĞLU HACILAR***

***Geliş Tarihi: Nisan, 2019*** ***Kabul Tarihi: Haziran, 2019***

## Öz

1918 yılının başlarında, Güney Kafkasya kazalarının birçoğunda olduğu gibi, farklı etnik içeriğe sahip olan Ahılkelek kazasında da etnik gruplar arası ilişkiler dayanılmaz bir düzeye ulaşmıştır. Bu kazanın Ermeni köyleri hızla silahlanarak öz savunma kuvvetleri adı altında silahlı gruplar oluşturmuş ve yerel Türk-Müslüman ahaliye karşı katliamlar yapmıştırlar. İlk korkunç katliam 1918 Mart'ının başlarında, Ahılkelek kazasının büyük Türk-Karapapak köyü Göyye`nin masum ve korunmasız nüfuzuna karşı işlenmiştir. Taşnak silahlıları köyü kuşatarak dağıtmış, çocukları ve kadınları süngülerle acımasızca öldürmüş, hayatta kalanları ise rehin almıştır. Göyye katliamından yaklaşık üç ay sonra, ermeni silahlı grupları Hosbiye köyünün bütün nüfusunu ele geçirip Ahılkelek kaza merkezine taşımış ve bir süre sonra vahşice katletmiştir. Makalede, 1918'in ilk yarısında Ahılkelek kazasında Türk-Müslüman nüfusa yönelik katliamın gerçekleri ve sonuçlarına dair önemli gerçekler ilk kez ortaya çıkarılarak birinci elden Gürcü ve Ermeni kaynaklarına referansla bilimsel düzleme dahil edilmiş ve karşılaştırmalı tahlil yöntemi ile incelenmiştir. Ahılkelekte Ermenilerin Türklere karşı işlediği soykırım suçlarının, etnik hoşgörüsüzlüğün ve nefretin yanı sıra kazanın gelecekte nüfusu coğunlukla Ermenilerden oluşan idari-bölge birimine (guberniya, cumhuriyet *vb.*) kolayca ve engelsiz bağlanması için mono-etnik bir alanın yaratılmasından kaynaklandığı sonucuna varılmıştır.

**Anahtar Sözcükler:** Ahılkelek, Göyye, Hosbiye, katliamlar.

## CASES AND RESULTS OF ETHNIC CLEANSING AGAINST AKHALKALAKI UYEZD`S TURKISH-MUSLIM POPULATION IN THE FIRST HALF OF 1918: GOYYE AND KHOSPIA MASSACRES

## Abstract

In the early 1918, as in most South Caucasian uyezds (administrative subdivisions), the inter-ethnic relations reached an unbearable level in the Akhalkalaki uyezd, which has different ethnic content. The Armenian villages of this region were armed under the name of self-defense forces and these armed groups carried out the massacres against the local Turkish-Muslim population. The first terrible massacre was committed against the innocent and unprotected population of the great Turkish-Karapapak village

* Dr.; Azerbaycan Cumhuriyeti Gürcistan Büyükelçiliği, haciyevf@yahoo.com

Goyye (Kokia) at the beginning of March, 1918. The Dashnaks surrounded the village by siege and killed children and women with bayonets and took the survivors hostage. Approximately after three months of the Goyye massacre, Armenian armed groups took over the entire population of Khospia (Hosbiye) village and expelled them to Akhalkalaki uyezd center and brutally slaughtered them after a while. In the article, the facts and results of the massacre against the Turkish-Muslim population in the Akhalkalaki uyezd in the first half of 1918 were included in the scientific circulation and carried out research with reference to Georgian and Armenian sources.

**Keywords:** Akhalkalaki, Goyye (Kokia), Khospia, massacres.

## 1. Giriş

1918-ci ilin əvvəllərində Cənubi Qafqazın bir sıra qəzalarında olduğu kimi, zəngin etnik tərkibə malik Ahılkələk[*] və Ahıska[**] qəzalarında da millətlərarası münasibətlər dözülməz həddə çatır. Bu qəzaların erməni kəndləri Gürcüstan ermənilərinin milli şurasının (GEMŞ) dəstəyi ilə sürətlə silahlanaraq özünümüdafiə dəstələri adı altında yerli türk-müsəlman əhaliyə qənim kəsilən quldur (haydut) dəstələri yaradırlar. Erməni mənbələrindən bəlli olur ki, Axıska qəzasında ilk olaraq Damala kəndində, Ahılkələk qəzasında isə Azarvet və Alastan kəndlərində silahlı quldur dəstələri formalaşdırılır. 250 nəfərlik Damala dəstəsinə Mato (Martiros) Saakyan, 300 nəfərlik Azarvet dəstəsinə isə Petros (Petuş) Darbinyan başçılıq edirlər (Sanosyan, 1988-1989). Ahılkələk şəhər başçısı M.Marqaryanın rəhbərliyi altında "Ahılkələk qəzasının müdafiə komitəsi" yaradılır. Erməni silahlı dəstələrinin təşkil olunmasına köməklik göstərməsi və bu dəstələrə komandanlıq etməsi məqsədilə GEMŞ polkovnik Arakelyanı və bir neçə kiçik rütbəli zabiti Tiflisdən Ahılkələyə ezam edir. Eyni zamanda GEMŞ tərəfindən Ahılkələk ermənilərinə 1200 nəfərlik hərbi sursat, 500 tüfəng, 66 min patron və 4 pulemyot göndərilir (Sanosyan, 1988-1989).

Hadisələrin sonrakı inkişafı göstərir ki, ermənilərin yuxarıda qeyd olunan hazırlıq fəaliyyətlərinin özünümüdafiə ilə heç bir əlaqəsi yox idi və öncəliklə Ahıska-Ahılkələk bölgələrində etnik təmizləmələr həyata keçirmək məqsədini daşıyırdı. Ahıskadan fərqli olaraq Ahılkələk qəzasında əhalinin böyük say üstünlüyünə[***] malik olmalarından istifadə edərək, onlar burada yerli türk-müsəlman əhaliyə qarşı talanlar, amansız qırğınlar və qətliamlar törətməkdən belə çəkinmirlər.

[*] rus və gürcü mənbələrində: Axalkalak, Axalkalaki.
[**] rus və gürcü mənbələrində: Axalsıx, Axaltsixe.
[***] 1 yanvar 1916-cı ilə aid statistik göstəricilərə görə, Ahılkələk qəzasının əhalisi 100118 nəfərdən ibarət olmuş, onlardan ermənilər – 76624 nəfər (76, 53 %), gürcülər – 10039 (o cümlədən, xristian gürcülər – 7162, müsəlman gürcülər – 2877), türklər (tərəkəmələr) - 5431 (5, 42 %), duxoborlar – 7106, kürdlər – 904 nəfər təşkil etmişlər. Həmin dövrdə Ahıska qəzasında 71477 nəfər qeydə alınmış, müsəlmanlar (türklər və gürcülər) – 51892 (72, 6 %), xristian gürcülər – 7497 (10, 5 %), ermənilər – 10060 (14 %), kürdlər – 1801 nəfərdən ibarət olmuşlar (Bax: Кавказский календарь на 1917 год, 1916, s. 210-213). Qeyd edək ki, Rusiya İmperiyasının Ahıska və Ahılkələk bölgələrində apardığı əhali siyahıyaalınmalarında, eləcə də bir çox rus və gürcü qaynaqlarında qarapapaq-tərəkəmə olmayan Ahıska türkləri çox zaman "müsəlman gürcülər" kimi göstərilirdilər.

## 2. Ahılkələk qəzasında 1918-ci ilin birinci yarısında türk-müsəlman əhalinin qətliamı və nəticə etibarilə baş vermiş etnomiqrasiya proseslərinin qısa xülasəsi

1918-ci ildə Ahılkələk qəzasında ilk dəhşətli qətliam mart ayının başlanğıcında qəzanın iri türk-qarapapaq**** yaşayış məntəqələrindən olan Göyyədə törədilir. Usul-Xeço (Ahıskalı Xaçatur Ter-Karapetyan) adı ilə tanınan quldurun (haydutun) başçılıq etdiyi daşnak terrorçu dəstələri kəndi mühasirəyə alıb yerlə-yeksan edirlər, uşaq və qadınları süngülərə taxıb amansızcasına qətlə yetirir, sağ qalanları isə girov götürüb qonşuluqda yerləşən Alastan erməni kəndinə aparırlar. Canlarını qaçaraq qurtara bilən Göyyəlilər isə yaxınlıqda yerləşən Ərdahana sığınırlar və bundan cəmi bir neçə gün sonra orada ermənilərə qarşı qisasyönlü hücumların təşkilində fəal iştirak edirlər. Həmin ərəfədə Ahıskada da vəziyyət gərginləşir.

Zaqafqaziya Seyminin 5 mart 1918-ci il tarixli iclasında Göyyə faciəsi barədə söz belə açılmadan Ərdahandakı vəziyyət müzakirə olunur. İclasın Tiflisin gürcüdilli mətbuatında – milli-demokrat yönümlü "Sakartvelo" qəzetində və sosial-demokrat yönümlü "Ertoba" qəzetində çap olunmuş stenoqramından bəlli olur ki, müzakirə zamanı Zaqafqaziya Demokratik Federativ Respublikasının bu ali qanunverici orqanının bəzi daşnak və menşevik təmsilçilərinin Ərdahan müsəlmanlarını dövlətə və 1917-ci ildə baş vermiş inqilabın prinsiplərinə xəyanətdə suçlayıb hadisələrə siyasi don geyindirmək cəhdləri, eləcə də müsəlmanlara qarşı cəza tədbirləri görmək üçün bu şəhərə silahlı dəstələr göndərmək barədə təklifləri Seymin müsəlman deputatlarının sərt təpkisi ilə üzləşərək nəticəsiz qalır (Bax: "Sakartvelo", 1918, 8 mart, № 51, s. 3; "Ertoba", 1918, 6 mart, № 53, s. 3).

Ərdahan və Şimal-Şərqi Anadolunun digər yaşayış məntəqələrindəki durum barədə xəbərlərlə mütəmadi olaraq öz oxucusunu bilgiləndirən gürcü mətbuatı da Göyyə qətliamı barədə susmağa üstünlük verirdi.

Göyyə qətliamından təqribən 3 ay sonra erməni-daşnak quldur dəstələri tərəfindən Ahılkələk qəzasında türk-müsəlman əhaliyə qarşı daha bir qətliam törədilir. Belə ki, Xosbiyyə kəndinin əhalisini bütövlükdə əsir götürüb qəza mərkəzinə aparan daşnaklar bir müddət sonra Ahılkələk küçələrində onları vəhşicəsinə qətlə yetirirlər. Bu faciə barədə də gürcü mətbu orqanları heç bir məlumat dərc etməyərək biganəliklərini qorumağa davam edirlər.

**** Qarapapaqlar – Azərbaycan türklərinin subetnik qrupu.

Cavaxet* türklərinin acı taleyi onların qonşu bölgələrdə yaşayan soydaşlarını ciddi narahat edirdi. Erməni mənbələri Ağbaba qarapapaqlarının cənub-şərqdən Cavaxet ermənilərinin başının üstə hücum üçün uyğun vaxt gözləyən "Damokl qılıncı"tək asıldığını bildirirdilər. "Haraç" (tərcüməsi: "İrəli") erməni qəzeti 1919-cu ildə nəşr olunmuş 4-cü sayında ağbabalıların 1918-ci ilin mart ayında Gümrüyə gəlmiş Ahılkələk ermənilərinin nümayəndə heyətini bu sözlərlə hədələdiyini yazırdı: "Sizin ömrünüz bu dağlarda qar əriyənədək uzanacaq" (Sanosyan, 1988-1989).

Ahılkələk qəzasında müsəlmanlara qarşı həyata keçirilən etnik təmizləmələr Şimal-Şərqi Anadoluda ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində uğurlu əməliyyatlar aparan Osmanlı ordu birliklərini 4 iyunda imzalanmış Batum andlaşmasının şərtlərinə görə rəsmən ona məxsus olan bu qəzaya doğru vaxt itirmədən yön almağa sövq edir. 5 iyunda Osmanlı ordusunun VI korpusunun iki həftədən çox Karsak kəndində mövqe tutub əmr gözləyən 123-cü alayı Ahılkələk qəza mərkəzini ələ keçirir. Bundan sonra müsəlmanlara qarşı qeyri-insani davranışların, törətdikləri amansız qətliamların cavabsız qalmayacağından ehtiyat edən qəzanın erməni əhalisi heç bir zorakılıq tətbiq olunmadan kütləvi şəkildə öz ev-eşiklərini atıb Borjom-Bakuryan meşələrinə, Tsalka (Barmaqsız, Trialet) dağlarına qaçırlar. Qışın başlanğıcına qədər dağlarda daldalanan bu qaçqınlar soyuqların düşməsi və yayılmış xəstəliklər səbəbindən ağır fəlakətlə üzləşirlər.

### 3. Ahılkələk gerçəklikləri barədə önəmli qaynaq – D.Cavaxelinin "Daşnakların qana bulanmış əlləri" məqaləsi

Erməni ictimaiyyəti və mətbuatı Ahılkələyin erməni qaçqınlarının qarşılaşdıqları problemlərə görə Gürcüstan Demokratik Respublikasının (GDR) hökumətini kəskin ittiham edirdi. Məhz bu ittihamlar "Droebit Cavaxeli" (gürcücədən tərcüməsi: "Müvəqqəti Cavaxetiyalı") imzalı müəllifi 1918-ci ilin mart-iyun aylarında Ahılkələk qəzasında və Ərdahanda baş vermiş faciələrdən xeyli sonra onların üzərindən sirr pərdəsini götürüb həqiqəti üzə çıxaran "Daşnakların qana bulanmış əlləri" sərlövhəli irihəcmli məqalə ilə çıxış etməyə, "Ertoba" qəzetini isə nəhayət ki, biganəliyini pozaraq bu məqaləni özünün 16 noyabr 1918-ci il tarixli sayında çap etdirməyə vadar edir. Məqalədə müəllif Ərdahan olaylarının daşnakların Göyyədə törətdikləri vəhşiliyin nəticəsi olduğunu vurğulayaraq yazırdı:

> Ərdahan fəlakətindən düz bir həftə qabaq Ahılkələk daşnakları gürcü müsəlmanların (Gürcüstan müsəlmanlarının – F.V.-H.) yaşadığı tarixi Göyyə (əhalisi qarapapaqlardan ibarət olan bu yaşayış məskəninin adı rus, gürcü və erməni

* Cavaxet (Cavaxetiya) – XIX-XX əsrin əvvəllərində mövcud olmuş Ahılkələk qəzasını, hazırda isə Gürcüstanın cənubunda yerləşən Axalkalaki və Ninotsminda (Boqdanovka) ilçələrini əhatə edən tarixi-coğrafi ərazi.

> mənbələrində Kokia kimi göstərilir – F.V.-H.) kəndini tarmar etdilər. Burada Zoryanın ("Daşnaksutyun" partiyasının fəal üzvlərindən biri, həmin dövrdə Ahıska şəhər başçısı vəzifəsini tutan Zori Zoryan nəzərdə tutulur – F.V.-H.) yaxşı tanıdığı, öz "zinvorları"nın (daşnak döyüşçülərinin – F.V.-H.) köməyi ilə kəndi mühasirəyə alıb viran qoyan, qadınların və uşaqların əsir götürülməsini, kəndin isə yerlə bir edilməsini əmr edən Usul-Xeço fəaliyyət göstərirdi... Mən xüsusi qeyd edirəm ki, Göyyə kəndinin dağıdılması təşəbbüsü Ahılkələk ermənilərinin daşnakçı şəhər rəhbərləri Markaryan və Ayvazyanın başçılığındakı milli şurasına məxsusdur. Elə bu şuranın qərarı ilə Usul-Xeçoya Ahılkələkdən toplar verilmişdi. Elə bu toplarla dinc kəndi qorxutdular,... uşaq və qadınları süngülərə taxdılar, sağ qalanları isə əsir götürüb erməni kəndi Alastana apardılar.
>
> Bu, Ərdahan ermənilərinin qırğınına səbəb oldu, hansında ki, birbaşa kəndləri dağıdılmış, evləri viran qoyulmuş, bütün mal-mülkləri əllərindən alınmış, əkilib-səpilmiş tarlaları isə üç erməni kəndi arasında bölüşdürülmüş Göyyə müsəlmanları iştirak edirdi (Cavaxeli, 1918).

Göyyə-Ərdahan hadisələri ilə eyni zamanda Ahıska (Axalsıx) qəzasında da ermənilərlə müsəlmanlar arasında silahlı qarşıdurma yaranır. General Q. Arcevanidzenin komandanlığı altında gürcü hərbi birləşmələrinin qəzaya yeridilməsi toqquşmaların daha böyük miqyas almasını əngəlləyir. Öz məqaləsində Ahıska hadisələrinə də ötəri nəzər yetirən D.Cavaxeli yazırdı:

> Məhz bu dövrlərdə Axalsıxın civarlarında da belə mürəkkəb vəziyyət yaranmışdı və daşnak "zinvor"ları hər gün müsəlman qadın və uşaqlarını əsir götürüb Axalsıxa aparırdılar, sonra isə danışıqlar və həqiqi ticarət başlayırdı. Axalsıxın sabiq şəhər başçısı və hazırda Gürcüstan parlamentinin üzvü olan daşnak Zoryan yəqin ki, bu mənzərələri xatırlayır. O, daşnak "zinvor"larının qumbara ilə Axalsıx qalasına sığınmış müsəlman uşaq və qadınlara hücum etdiyini də xatırlamalıdır. O zaman xalq qvardiyaçıları yetişməsə, Ahılkələk kimi, burada da günahsız insanların qanı axıdılacaqdı (Cavaxeli, 1918).

D.Cavaxeli Xosbiyyə kəndinin sakinlərinin başına gətirilmiş müsibət, "bənzərini erməni-tatar* nifaqı xatırlamayan böyük və tükürpədici vəhşilik" barədə də məlumat verərək, daşnakların əvvəlcə Xosbiyyəlilərin hamısını, hətta məşhur xeyriyyəçi Məmmədəli bəy Palavandovu əsir götürüb Axalkələyə apardıqlarını, Batum sülh müqaviləsindən sonra isə Osmanlı əsgərinin gəlişinə qədər qəddarlıqla qətl etdiklərini yazırdı:

* Tatar – burada və bundan sonra - Türk (F.V.-H.).

> Ahılkələk yaxınlığında qədim gürcü kəndi var – Xosbiyyə**, harada ki, indi Palavandişvili soyadlı müsəlmanlaşmış gürcülər yaşayırlar. Daşnaklar bu kəndi bütünlükdə əsir götürüb Axalkələyə apardılar. Onlar məşhur xeyriyyəçi, o zaman Cavaxetin gürcü xeyriyyə cəmiyyətinin sədri olan və bütün mədəni ictimaiyyətə səxavətlə yardım göstərən Məmmədəli bəy Palavandovun özünə də mərhəmət etmədilər. Ötən il Ahılkələkdə açılmış müsəlman gürcü uşaqların təhsil aldığı gürcü gimnaziyasının xərclərinin yarısını o çəkmişdır. Daşnaklar Palavandişvilinin ailəsini əsir götürdülər və onun mal-mülkünü talan etdilər. Bu, Batum sülh müqaviləsi ilə geri çəkilməyə məcbur olub iki qəzanı (Ahıska və Ahılkələk qəzaları – F.V.-H.) düşmənə (Osmanlı nəzərdə tutulur – F.V.-H.) verənə qədər davam etdi. Məhz bu zaman indiyədək bənzəri görünməyən bir böyük vəhşilik baş verdi. Şəhəri (Axalkələyi – F.V.-H.) boşaldana qədər Xosbiyyəli müsəlmanları çıxarıb Ahılkələk küçələrində başlarını kəsdilər (Cavaxeli, 1918).

Daşnakların Xosbiyyəlilərdən yalnız Məmmədəli bəy Palavandovu və ailəsini öldürməyərək şəhərdən çıxardıqlarını qeyd edən D.Cavaxeli onların gürcülər tərəfindən xilas edilərək Tiflisə göndərildiyini bildirir, məqaləsinin davamında Xosbiyyədə törədilmiş vəhşiliklərin sonradan Ahılkələk qəzasının erməni əhalisini didərgin düşüb "Bakuryan meşələrində aclıqdan-soyuqdan qəbirədək gətirdiyini" söyləyirdi:

> Bütün bunlardan sonra qəza sakinləri qorxudan öz kəndlərində qala bilmədilər, intiqamdan qorxurdular. Ona görə kor xalq tərpəndi, özünün qidasını-yemini atıb Bakuryan meşələrində və Tsalka civarlarında daldalandı. Markaryan-Ayvazyanlar isə vaxtında gizlənə bildilər. Həyəcanlanmış xalq onları yaman axtarırdı. Onlar isə ermənilərin nümayəndələrinin sonradan Bakuryanda xalqı dəhşətli vəhşiliyi törədənləri axtarıb tapmağa və cəzalandırmağa çağırmasına baxmayaraq, indi Tiflis küçələrində sərbəstcə gəzirlər (Cavaxeli, 1918).

### 4. Ahılkələk qırğınları və onların nəticələri P.Abelyanın hesabat məruzəsində

Tiflisdəki erməni milli şurasının əslən Cavaxetiyalı fəal üzvü, Ahılkələk qəzasının erməni icmasının idarə heyətinin katibi Poqos Abelyan Ermənistan Sovet Sosialist Respublikasının xalq xarici işlər komissarı Askanaz Mravyana sonuncunun istəyi əsasında hazırladığı 17 iyul 1921-ci il tarixli hesabat məruzəsində Cavaxetiyanın tarixi və coğrafi mövqeyi barədə qısa məlumat verərək, 1918-ci ildə Ahılkələk qəzasında baş vermiş hadisələrə də ardıcıllıqla, fəqət erməni təbliğatı prizmasından nəzər yetirirdi (ETA, f. 114, s. 2, № 3, vv. 122-134). Bu hesabat hər nə qədər qərəzli şəkildə tərtib olunsa da, digər mənbələrlə müqayisəli

** Ahılkələk qəzasına aid rəsmi statistik göstəricilərdə Böyük və Kiçik Xosbiyyə kəndlərində "tatar"ların (türklərin) yaşadığı qeyd olunur (Bax: Valehoğlu, 2008) – (F.V.-H.).

təhlil prinsipi əsasında tarixi həqiqətlərin ortaya çıxarılması baxımından əhəmiyyət kəsb edir. Xüsusən də P. Abelyanın Göyyə və Xosbiyyə əhalisinin başına açılan zülmlər barədə məlumatları maraq doğurur. Göyyə hadisələri barədə o yazırdı:

“Səhv etmirəmsə, martda daha güclü Ahılkələk ermənilәri Axalkələyin və Ahıskanın sərhədində yerləşən, xatırladığım qədər adı Göyyə olan türk kəndinə hücum edirlər, onu talan edirlər; kənd sakinləri Ərdahana qaçır” (ETA, f. 114, s. 2, № 3, vv. 122-134).

Göyyədə sakinlərin qətl olunması barədə söz açmayan P.Abelyan Xosbiyyə sakinlərinin məruz qaldığı amansızlıqlar barədə aşağıdakıları açıqlayırdı:

> Xuliqanlıq edən yerli ünsürlər, hansıları ki, hakimiyyət qayda-qanuna riayət etməyə çağırmır, erməni eserləri (sosialist-inqilabçılar – F.V.-H.) və daşnaklarının (sonuncular daha nüfuzlu idilər) başçılığı altında həbsxanada oturan 300-400 türk əsirinin, əsasən də aralarında mülkədar nəsli Palavandovların da bütün üzvləri olan zənginlərin üstünə hücum edirlər, onların namusunu ləkələyirlər, qarət edirlər və hamısını evdə yandırırlar. Seym və Milli şura hadisələrin bu cür inkişafının qarşısının alınması üçün heç nə etmədilər (ETA, f. 114, s. 2, № 3, vv. 122-134).

Göründüyü kimi, P.Abelyan Xosbiyyə müsəlmanlarının yandırılaraq, gürcü müəllif D.Cavaxeli isə başlarının kəsilərək öldürüldüyünü yazırlar. İstənilən halda Xosbiyyəlilərin insanlıq çərçivəsinə sığışmayan vəhşiliklə və qəddarlıqla qətliama məruz qaldığı bəlli olur.

P.Abelyan öz hesabat məruzəsində daha sonra Osmanlı qüvvələrinin 1918-ci ilin iyun ayında Axalkələyə gəlişi məsələsinə toxunaraq, Ahılkələkdəki silahlı erməni dəstələrinə komandanlıq edən polkovnik Arakelyanın türk əsgərlərinin görünməsi ilə Bakuryan istiqamətində ilk qaçanlar arasında olduğunu bildirirdi. O, Axalkələyi fəth edən Osmanlı hərbi birləşmələrinin 1000-2000 arası əsgərdən ibarət olduğunu vurğulayaraq, qəzanı sayı elə də çox olmayan türk əsgərlərindən qoruya bilməməkdə polkovnik Arakelyanla bərabər GDR hökumətini günahlandırırdı. P.Abelyan gürcü hökumətini, həmçinin, Bakuryan sərhədində qaçqınların silahlarını əllərindən almaqda və “Türk bozqurdu” qarşısında müdafiəsiz buraxmaqda, onlar arasında qayda-qanunu tənzimləmək üçün göndərdiyi milislərin isə əksinə talançılıq etməsinə şərait yaratmaqda ittiham edirdi.

Hesabatında Osmanlı diplomatik nümayəndəsi Əbdül Kərimlə görüşdüyünü və ondan qaçqınların Ahılkələk qəzasına geri dönməsinə şifahi razılıq aldığını ifadə edən P.Abelyan buna rəğmən, GDR hökumət dəftərxanasının rəhbəri Kojuxovun GEMŞ nəzdindəki qaçqınların məsələləri üzrə ali şuraya ünvanlandığı məktubda Gürcüstanda ərzaq böhranının yarandığını və guya ki, Osmanlı hökumətinin qaçqınların qayıtmasının qəti əleyhinə olduğunu bildirdiyini, bu

səbəbdən onları Şimali Qafqaza köçürməyi təklif etdiyini yazırdı. O, bununla gürcü hökumətinin Axalkələyi ermənilərsiz əldə etmək istədiyini sözlərinə əlavə edirdi.

### 5. Ahılkələkli qaçqınların durumunun dövrün gürcü mətbuatında əksi

Qeyd edək ki, gürcü mətbuatı Ahılkələk qəzasından və digər bölgələrdən olan qaçqınların durumunu daim diqqət mərkəzində saxlayırdı. “Sakartvelo” qəzetinin 1918-ci il 6 avqust tarixli sayında qəzanın gürcü qaçqınlarının Gürcüstanın müxtəlif bölgələrinə yerləşdirilməsi ilə bağlı Torpaq məsələləri üzrə Nazirliyə sorğu göndərildiyi barədə məlumat verilirdi. Qəzet həmin buraxılışında erməni qəzetlərinin artıq intonasiyalarını dəyişdiyini və öz səhifələrində indi “gürcülərlə həmrəylik vacibdir”, “Gürcüstan məzlum erməni millətinin min bir ehtiyacdan və qırğından başını qurtara biləcəyi yeganə dövlətdir” və s. kimi ifadələrə yer ayırdığını yazırdı. Bütün bunların erməni mətbuatında gürcülərə qarşı təhqirlərdən və “yıxıb-sürümələrdən” sonra baş verdiyini qeyd edən “Sakartvelo” bu mövqe dəyişməsinin səmimiliyinə inanmır, “növbəti xoşagəlməz nəyinsə hazırlandığını və bunun şirin sözlər altında pərdələndiyini” güman edirdi (“Sakartvelo”, 1918, 6 avqust, № 154, s. 3).

“Sakartvelo” 1918-ci il 27 avqust tarixli sayında 5000 erməni qaçqınının Tiflisin Ortacala məhəlləsində yerləşdirildiyini və həmin məhəlləyə yaxınlarda qaçqınların yeni qrupunun gələcəyini yazırdı (“Sakartvelo”, 1918, 27 avqust, № 170, s. 2).

Rəsmi dövlət qəzeti olan “Sakartvelos Respublika” 1918-ci il 10 oktyabr tarixli sayında Borçalı qəzasının gürcü kəndlərinə (Qələmçə, Mica, Bosleb və s.) çox sayda Axalsıxlı və Cavaxetli gürcü qaçqının sığındığı barədə məlumat dərc edirdi (“Sakartvelos Respublika”, 1918, 10 oktyabr, № 62, s. 5).

Ermənilər də Borçalı qəzasında məskunlaşmağa can atırdılar. Ahılkələk erməni icmasının gürcü və erməni hökumətlərinə, Osmanlı və Ermənistanın Gürcüstandakı diplomatik nümayəndələrinə, GEMŞ-ə və Amerika Xeyriyyə Komitəsinə ünvanlandığı müraciətdə Gürcüstan hökuməti tərəfindən Ahılkələk qaçqınlarının əvvəlcə Şimali Qafqaza, son zamanlarda isə 2/3-nin Ermənistana köçürülməsinin təklif olunduğu, ancaq Ermənistanın bunun üçün imkanları olmadığı vurğulanır və hazırkı məqamda vəziyyətdən ən uyğun çıxış yolunun onların Borçalı qəzasının tərk edilmiş erməni və müsəlman kəndlərində yerləşdirilməsindən ibarət olduğu bildirilirdi (EMEATİA, Leo adına fond 1, s. 1, iş № 264, vv. 1-2).

“Sakartvelos Respublika” qəzeti 1918-ci il 5 sentyabr tarixli sayında Tiflisdə yayımlanan “Mşak” erməni qəzetinə istinadən 40 min Ahılkələk qaçqınından 1500-nün Borçalı qəzasına - Ağbulağa gələrək keçmiş rus ordu kazarmalarında yerləşdiyi barədə məlumat yayımlayırdı. Məlumatdan bəlli olur ki, Ağbulağın yerli hakimiyyət orqanları bu kazarmaların

gürcü ordusuna lazım olduğu üçün boşaldılmasını tələb edir. Cavabında qaçqınların səlahiyyətlisi kazarmaların sayının həm ordu bölmələri, həm də qaçqınlar üçün yetərli olduğunu və gürcü yerli hərbi hissələrinin komandanı polkovnik Saqinaşvili ilə görüşüb məsələ barədə razılığa gəldiyini deyir (“Sakartvelos Respublika”, 1918, 5 sentyabr, № 34, s. 6).

Yeri gəlmişkən qeyd edək ki, Çar Rusiyasının son dövrlərindən etibarən erməni millətçi təşkilatları Borçalı və Ahılkələk qəzalarının Tiflis quberniyasından ayrılaraq Aleksandropol (Gümrü) quberniyasına birləşdirilməsi məsələsini qaldırırdılar. Oktyabr çevrilişi nəticəsində Cənubi Qafqazda yaranmış hakimiyyət boşluğundan istifadə edərək, ermənilər 1918-ci ilin əvvəllərində qeyd olunan qəzalar üzərində öz iddialarını daha aktiv və açıq şəkildə irəli sürməyə başlayırlar. 1918-ci il yanvarın 22-də Ahılkələk qəza icraiyyə komitəsi bu qəzanın Aleksandropol quberniyasına birləşməsini qərara alır (“Sakartvelo”, 1918, 4 fevral, № 28). Baş verənlərə gürcü ictimaiyyəti və mətbuatı sərt təpki göstərir. “Vepxvi” (gürcücədən tərcüməsi: pələng) imzalı müəllif “Sakartvelo” qəzetinin 1918-ci il 10-cu sayında dərc etdirdiyi yazısında Borçalı və Ahılkələk qəzalarının sərhədlərinin dəyişdirilməsinə heç bir əsas olmadığına diqqəti çəkir (“Sakartvelo”, 1918, 13 yanvar, № 10).

Ermənilərin Borçalı və Ahılkələk qəzaları ərazilərinə torpaq iddiaları Gürcüstan Demokratik Respublikası müstəqilliyini elan etdikdən sonra da davam edir. Ermənistan (Ararat) Respublikasının Gürcüstandakı diplomatik nümayəndəliyinin rəhbəri Arşak Camalyan öz hökumətinin ona verdiyi səlahiyyət əsasında GDR xarici işlər nazirinə aşağıdakı məzmunda nota göndərmişdi:

> Keçmiş Borçalı qəzasının Lori rayonunu Ermənistan hökuməti Gürcüstanın ərazisi hesab etmir və ona görə o, Gürcüstanın bu rayonda qaçqınların yerləşdirilməsinin qadağan olunması barədə hüququnu tanımır. Əgər Gürcüstan hökuməti bu köçürülməni yenə də qadağan etsə, Ermənistan hökuməti bunu zorakılıq və hüquqa zidd akt hesab edəcək (“Sakartvelo”, 1918, 30 oktyabr, № 206).

Çox güman ki, məhz elə yuxarıda qeyd olunanlara görə, Gürcüstan hökumətinin qərarı ilə bu ölkədəki erməni qaçqınların Borçalı qəzasının Lori nahiyəsinin erməni kəndlərinə yerləşdirilməsi qadağan olunmuşdu.

Ahılkələk erməni icmasının idarə heyətinin sədri V. Oqancanovun Gürcüstan hökumətinə və GEMŞ-ə ünvanlanmış, “Kavkazskoye slovo” qəzetinin 27 oktyabr 1918-ci il tarixli sayında dərc olunmuş müraciətində soyuqların düşməsi ilə əlaqədar qaçqınların üzləşdiyi problemlərə diqqət yönəldilir və onların tezliklə öz evlərinə dönmələri üçün köməklik göstərilməsi xahiş olunurdu (“Kavkazskoye slovo”, 1918, 27 oktyabr, № 231).

1918-ci ilin noyabr ayında qaçqınların Axalkələyə dönüşünə razılıq verilir. GEMŞ general A.Makaşvilinin teleqramına əsasən özünün Cavaxet qaçqınları üzə səlahiyyətli nümayəndəsi Torosyantsı xəbərdar edir ki, osmanlılar qaçqınların Ahılkələk qəzasına qayıtmasına və qəzanın sərhəd kəndlərində deyil, mərkəzi ərazilərində məskunlaşmasına icazə verirlər ("Sakartvelo", 1918, 24 noyabr, № 226, s. 2). Axalkələyə qayıdış şəhadətnamələrini kapitan Kandelaki verir. Eyni zamanda Ararat Respublikasının Xarici İşlər Nazirliyi GMEŞ-ə bildirir ki, Osmanlının Gürcüstandakı diplomatik nümayəndəliyinin əməkdaşı Məmməd Əli Paşanın teleqramına görə, osmanlılar qayıdan qaçqınları Ahılkələk sərhədində qəbul etmək üçün komissiya yaradıblar ("Sakartvelo", 1918, 24 noyabr, № 226, s. 2).

26 noyabr 1918-ci ildə Tiflisdə GEMŞ-in təcili toplantısı keçirilir. Toplantıda qaçqınların Ahılkələk qəzasına qayıtması məsələsi müzakirə olunur. Müzakirədəki çıxışlardan bəlli olur ki, qaçqınlar GEMŞ-in heç bir xahiş və xəbərdarlığını nəzərə almadan kütləvi şəkildə öz evlərinə dönürlər, buna səbəb isə onlara duxoborlar vasitəsilə çatdırılmış məktubdur. Cavaxetin nüfuzlu Türk ağalarının – Məhəmməd ağa Hidayət oğlunun, Əbdüləziz ağanın və Yusuf ağa Yaradanquluyevin imzası ilə rus dilində yazılmış məktubda Ahılkələk qəzasının erməni qaçqınlarının dönüşü üçün yolların açıq olduğu və onları qəzanın Rodionovka kəndində qəbul komissiyasının gözlədiyi bildirilirdi ("Kavkazskoye slovo", 1918, 15 (28) noyabr, № 258; "Borba", 1918, 30 noyabr, № 232).

## 6. Sonuç

Göründüyü kimi, daşnakların Göyyədə törətdikləri qətliam Ərdahan ermənilərinin, Xosbiyyə müsəlmanlarına qarşı həyata keçirdikləri dəhşətli vəhşiliklər və qırğınlar isə Trialet dağlarında Ahılkələkli erməni qaçqınlarının faciəsi ilə nəticələnir. Ancaq buna rəğmən, erməni millətçiləri Cavaxetiyalı soydaşlarının üzləşdikləri problemlərdə əsas səbəbkar kimi həqiqətə uyğun olaraq özlərini yox, digərlərini, o cümlədən 1918-ci ildə GDR hökuməti tərəfindən Ahıska-Axalkələyin general-qubernatoru təyin edilmiş Abel (Balo) Makaşvilini (Makayev) görürdülər və onun "Daşnaksutyun"un çıxardığı ölüm hökmü ilə 1920-ci ildə Bakıda güllələndiyini bildirirdilər (ETA, f. 114, s. 2, № 3, vv. 122-134). Digər mənbələrdə isə, A.Makaşvilinin Azərbaycan sovet işğalına məruz qalandan sonra, 14 iyun 1920-ci ildə Fövqəladə Komissiyanın ("ÇK") qərarı ilə antisovet fəaliyyətində ittiham olunaraq ölüm hökmünə məhkum edildiyi, hökmün məhkumun əl-ayağı bağlı şəkildə Xəzər dənizinə atılaraq icra olunduğu yazılır (GPMK).

Qeyd edək ki, A. Q. Makaşvili 1919-cu ilin avqust ayından etibarən Azərbaycan Xalq Cümhuriyyətinin hərb naziri S.Mehmandarovun 354 saylı əmri ilə Cümhuriyyət ordusuna xidmətə götürülmüş, I piyada diviziyasının rəis müavini, eyni zamanda Xankəndi qarnizonunun

rəisi vəzifəsinin icraçısı təyin olunmuşdur. O, daha sonra II piyada diviziyasının rəis müavini, 1920-ci ilin mart ayında isə Gəncə hərbi məktəbinin müdiri və mühəndis-istehkam sahəsinin rəisi vəzifəsini tutmuşdur [Адрес-календарь Азербайджанской Республики, 1920, с. 303; Азербайджанская Демократическая Республика (1918—1920). Армия. (Документы и материалы), 1998, с. 278].

Antanta blokunun Birinci Dünya Müharibəsində qalibiyyəti nəticəsində 30 oktyabr 1918-ci ildə Osmanlı ilə Antanta dövlətləri arasında bağlanmış Mondros (Mudros) müqaviləsinin şərtlərinə əsasən, düz 6 ay sonra – 5 dekabr 1918-ci ildə Osmanlı ordu birləşmələri Ahılkələkdən çəkilərək öz mövqeyini gürcü hərbi hissələrinə verir. 5 dekabr səhər saat 10-da general-mayor A.Makaşvilinin komandanlığı altında gürcü hərbi birləşmələri Axalkələyə daxil olurlar (“Sakartvelo”, 1918, 7 dekabr, № 234, s. 2). Çox keçmədən Ahılkələk və Borçalı qəzalarına iddialarından əl çəkməyən Ararat Respublikası bu əraziləri silah gücü ilə işğal etmək qərarına gəlir və Gürcüstana qoşun yeridir. Beləliklə, Borçalı və Ahılkələk uğrunda Gürcüstan-Ermənistan müharibəsi başlanır.

1918-ci il Gürcüstan-Ermənistan müharibəsinin başlıca səbəbi, həmçinin yuxarıda da qeyd olunduğu kimi, Rusiya İmperiyasının son dövrlərində erməni millətçi təşkilatlarının Ahılkələk qəzasını Aleksandropol quberniyasına birləşdirmək çabaları belə bir nəticəyə gəlməyə əsas verir ki, bu qəzada ermənilərin türklərə qarşı həyata keçirdikləri soyqırımı cinayətləri etnik dözümsüzlüklə yanaşı, qəzanın gələcəkdə əhalisi əsasən ermənilərdən ibarət olan inzibati-ərazi vahidinə (quberniya, respublika və s.) asanlıqla, maneəsiz birləşdirilə bilməsi üçün monoetnik bölgə yaratmaq məqsədindən qaynaqlanırdı.

## Qaynaqlar

*Адрес-календарь Азербайджанской Республики.* (1920). Баку.

*Азербайджанская Демократическая Республика. (1918—1920). Армия. (Документы и материалы).* (1998). Баку.

Borba («Борьба») qəzeti. (1918). Tiflis.

Cavaxeli, D. (1918). Daşnakların qana bulanmış əlləri. *Ertoba qəz.*, 1918, 16 noyabr, 248, 3.

EMEATİA - Ermənistan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Arxivi, Leo adına fond 1, siyahı 1, iş № 264 (Bax: http://javakhk1915-23.com/index_en.php?rpage=http://javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_to_turkish_military_ru.html, 26.09.2018).

Ertoba (ერთობა) qəzeti. (1918). Tiflis.

ETA - Ermənistan Tarix Arxivi, fond 114, siyahı 2, iş № 3 (Bax: http://www.javakhk1915-23.com/index_en.php?rpage=http://www.javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_abelian_ru.html, 26.09.2018).

GPMK - http://www.nplg.gov.ge/emigrants/ka/00000695/ (Gürcüstan Parlamentinin Milli Kitabxanasının rəsmi veb-saytı), 08.10.2018.

*Кавказский календарь на 1917 год*. (1916). Tiflis.

Kavkazskoye slovo (Кавказское слово) qəzeti. (1918). Tiflis.

Sakartvelo (საქართველო) qəzeti. (1918). Tiflis.

Sakartvelos respublika (საქართველოს რესპუბლიკა) qəzeti. (1918). Tiflis.

Sanosyan, A. – Саносян, А. (1988-1989). Плечом к плечу против врага, *«Хорурдаин Айастан»* qəz., (Bax: http://javakhk1915-23.com/index_en.php?rpage=http://javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_sanosian_1_shoulder_ru.html, 26.09.2018).

Valehoğlu, F. (2008). Cavahet (Ahılkelek) Karapapakları. *Bizim Ahıska*, 9, 45-46.

## Extended Abstract

In the early 1918, as in most South Caucasian uyezds (administrative subdivisions), the inter-ethnic relations reached an unbearable level in the Akhalkalak (Akhilkalak) uyezd, which has different ethnic content. The Armenian villages of this region were armed under the name of self-defense forces and these armed groups carried out the massacres against the local Turkish-Muslim population. The first horrific massacre was committed against the innocent and unprotected population of one of the largest Turkish-Karapapak village Goyye (Kokia) at the beginning of March, 1918. The Dashnak military guards, led by the thug, known as Usul-Heco (Khachatur Ter-Karapetyan), attacked the village and brutally murdered the children and women of the village. The Goyye population, who can escape their lives, seek refuge in the nearby town of Ardahan, and only a few days later, they were actively involved in organizing counter-activities against Dashnak military groups there. Even the Georgian media, which regularly informed its readers regarding the situation in Ardahan and other settlements in North-Eastern Anatolia, preferred to silence the Goyye massacre.

About 3 months after the Goyye massacre, the Armenian-Dashnak thug groups commit another massacre against the Turkish-Muslim population at the Akhalkalak uyezd. Thus, Dashnaks, who captured the entire population of the village of Hosbiye (Khospia) and carried them to the uyezd center, murdered them wildly in the streets of Akalkalak. The Georgian media continued to maintain its indifference by not publishing any information about this tragedy.

Ethnic cleansing against Muslims in the Akhalkalak uyezd has prompted the Ottoman Army which was carrying out successful operations in the area of restoration of the country's territorial integrity in the South-Eastern Anatolia to capture the Akhalkalak uyezd center, which was officially perceived by the Batum Treaty signed on 4th of June. After that, being afraid that the non-human behavior towards Muslims and the merciless massacre committed by them will not remain unanswered, the Armenian population of the Akhalkalak uyezd, without any violence committed towards them massively left their homes and rushed to the nearby Borjom-Bakurian forests, to the Tsalka (Parmaksiz, Trialet) mountains. These refugees, hidden in the mountains before the start of the winter, face a severe disaster due to cold weather and widespread illness.

Armenian community and media were sharply accusing Government of the Democratic Republic of Georgia for the problems facing Armenian refugees. It is these accusations that make the author named “Droebit Djavakheli”, long after the massacres of Turkish-Muslim population in Akhalkalak uyezd in the first half of 1918, to take away the veil of the mystery over these tragic events and reveal the truth with the article titled "Dashnaks' blood-stained hands" in “Ertoba” newspaper. In the article, the author stresses that the events of Ardahan and Akhalkalak were the result of the atrocities committed by Dashnaks in Goyye and Hosbiye.

D.Djavakheli describes the misery experienced by the residents of the Goyye and Hosbiye. In his article, the author was giving information about “the great and spitting brutality, similar of which have not been remembered by Turkish-Armenian conflict”. He was writing that Dashnaks first captured all the

Hosbiyens, even the famous philanthropist Mehmet Ali bey Palavandov, and took them to Akhalkalak, and then brutally murdered many of them until the arrival of the Ottoman Soldier after the Batum peace treaty. D.Djavakheli note that among the Hosbiyens the Dashnaks had only removed Mehmet Ali bey Palavandov and his family from the city without killing them and that they were rescued by the Georgians and sent to Tiflis. In the rest of the article the author writes that the atrocities committed in Hosbiye subsequently lead to temporary resettlement of the Armenian population from Akhalkalak uyezd, which eventually “brought them to grave because of hunger and cold in Bakurian’s woods".

On July 17, 1921 Pogos Abelyan - an active member of the Armenian National Council Tiflis, the secretary of the Armenian community organization of the Akhalkalak uyezd, prepares a report on events of 1918 in Akhalkalak uyezd to Askanaz Mravyan - commissar for foreign affairs of the Armenian Soviet Sosialist Republic. Although, in this report P.Abelyan considers Akhalkalak events from the Armenian propaganda and ideology prism, he could not hide the truth about savageries that the Hosbiye residents were exposed. P. Abelyan writes that the Muslims of Hosbiye were killed by being burned, while Georgian author D.Djavakheli writes that their heads had been cut off. At any rate, it is clear that the Hosbiyens were subjected to brutality and cruelty, which did not fit into humanity.

In the article, the facts and results of the massacre against the Turkish-Muslim population in the Akhalkalaki uyezd in the first half of 1918 were included in the scientific circulation and carried out research with reference to Georgian and Armenian sources.